Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.
Heydər Əliyev.



GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 1-2 (9233-9234) | 15 fevral 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 yanvar 2017-ci il

Səyyar "ASAN qatar" rayonumuzda olmuşdur

Yanvarın 27-də Səyyar "ASAN qatar" respublikamızda ilk dəfə olaraq Qazax rayonuna gəlmiş və fevralın 1-dən rayon vətəndaşlarına xidmət göstərməyə başlamışdır. Göstərilən xidmətin dairəsi çox əhatəli və geniş olmuşdur.

Belə ki, rayon sakinlərinə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi, tibb xidmətləri və Azərbaycan Dəmir Yolları ASC-nin bilet satışının həyata keçirilməsi ilə bağlı xidmətlər göstərilmişdir.

Elə ilk gündən başlayaraq rayon sakinləri yuxarıda göstərilən sahələr üzrə xidmətin fəaliyyətindən istifadə etmişlər. Bunu xidmətə müraciət edən vətəndaşların sayından da aydın görmək olar. Belə ki, xidmətin fəaliyyət göstərdiyi müddətdə 4000-dən çox vətəndaş xidmətin fəaliyyətindən yararlanmışdır. Şəffaf şəraitdə göstərilən xidmətdən razılıq edən vətəndaşlar onlar üçün yaradılmış şəraitə görə ölkə başçısı İlham Əliyev cənablarına və rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər.

20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir

Rayonumuzda 20 Yanvar faciəsinin 27-ci ildönümü qeyd olunmuşdur

20 Yanvar Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

1990-cı il yanvarın 19-dan 20-nə ke-çən gecə Bakıda sovet ordusu tərə-fin-dən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı ha-di-sənin törədilməsində əsas məqsədlər-dən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliy-yət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi.

Xalq o günlərdə böyük bir həqi-qəti - meydanda həqiqi liderin olma-masını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azər-baycanın Moskvadakı daimi nümayən-dəliyinə gəldi. Ulu öndər təcavüzə kəs-kin etirazını bildirdi, faciəni törədən-ləri, şəxsən M.Qorbaçovu kəskin it-tiham etdi, qoşunların Bakıdan çıxarıl-masını tələb etdi. Xalqımızın ümum-milli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymət-lən-dirmək yolunda ciddi addımlar atıldı. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlil-lərin problemlərinin dövlət səviyyəsin-də həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinin yad edilməsi üçün Tədbirlər Planının Prezident tərəfindən təsdiq edilməsi buna əyani sübutdur.

Respublikamızın hər yerində olduğu kimi Qazax rayonunda da Azərbaycan xalqının azadlığı uğrunda canlarından keçmiş 20 Yanvar şəhidlərinin xatirəsi yad edilmişdir. Bununla əlaqədar şəhərin mərkəzindəki Şəhidlər Xiyabanında mərasim keçirilmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov 20 Yanvar şəhidlərinin xatirəsini yad etmək üçün Şəhidlər Xiyabanına gəlmişdir. Şəhidlərin ruhuna dua oxunduqdan sonra Rəcəb Babaşov şəhidlərin abidəsi önünə gül dəstələri qoymuş, onların xatirəsini dərin ehtiramla yad etmişdir.

Həzin musiqi sədaları altında şəhidlərə həsr olunmuş şeirlər səslənmişdir.

Tədbirdə iştirak edən idarə, müəssisə və təşkilatların kollektivləri, rayon sakinləri, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri Şəhidlər Xiyabanında abidənin önünə gələrək şəhidlərin ölməz ruhunu yad etmiş, abidə önünə tər qərənfillər qoymuşlar.

Saat 12:00-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Küçələrdə hərəkət dayandırılmış, səs siqnalları verilmişdir.

Elçin İSMAYIL

HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək heykəli önünə gül dəstələri qoymuş, ümummilli liderin əziz xatirəsini yad etmişlər.

Sonra Gənclər Mərkəzinin akt zalında rayon ictimaiyyəti nümayəndələrinin, idarə və müəssisə rəhbərlərinin, sahibkarların, KİV nümayəndələrinin iştirak etdiyi yığıncaq öz işinə başlamışdır.

Tədbir iştirakçıları hesabat ilində ayrı-ayrı müəssisələr tərəfindən rayonda istehsal olunmuş məhsullardan ibarət sərgiyə baxmış, 2016-cı ildə rayonda həyata keçirilən tikinti-quruculuq işlərini əks etdirən foto-stendlə tanış olmuşlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Qazax rayonunun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd etmişdir ki, bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bildirmişdir ki, hesabat dövründə respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2016-cı ildə demək olar ki, bütün sahələr üzrə uğurlu göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmiş, bununla bağlı mühüm işlər görülmüşdür. Rayonda "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2016-cı ildə də uğurla həyata keçirilmişdir.

Respublika Prezidenti İlham Əliyev səkkizinci dəfə rayonumuza rəsmi səfər etmişdir. Bu səfər zamanı Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan, müasir tələblərə cavab verən Tarix-Diyarşünaslıq Muzeyinin, uzunluğu 10 km olan Qazax-Kosalar avtomobil yolunun, 110/35/6 kv-luq Daş Salahlı yarımstansiyasının və "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" binasının açılışında iştirak etmişdir.

Məruzə ətrafında çıxışlar olmuşdur. Qazax rayonu üzrə Maliyyə İdarəsinin rəisi Novruz Abdullayev, Kənd Təsərrüfatı İdarəsinin rəisi Həmid Pənahov, Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, rayon mərkəzi xəstəxanasının baş həkimi Arzu Novruzov, Elektrik Şəbəkəsinin rəisi Elşad Məmmədov çıxış edərək hesabat dövründə rəhbərlik etdikləri sahələrdə görülən işlərdən söz açmışlar.

Tədbir iştirakçıları əvvəlcədən zalda quraşdırılmış mikrafon vasitəsilə öz təkliflərini söyləmişlər. Çıxışçılardan I Şıxlı kənd sakini Şəmşəd İbrahimov, rayon təhsil şöbəsinin nəzdində fəaliyyət göstərən UGİM-nin direktoru Şücayət Nağdalıyev, 6 saylı körpələr evi-uşaq bağçasının müdiri Nəzakət İsgəndərova, Kosalar kənd sakini Cavanşir Rüstəmov, Qazax Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Gülnaz Alışanova, Kəmərli kənd sakini Rəhim Rəhimov, Quşçu Ayrım kənd sakini Yusif Nəbiyev, Məzəm kənd sakini Süleyman Süleymanov, Cəfərli kənd sakini Seyfəddin Vəliyev, Bala Cəfərli kənd sakini Ceyhun Rəhimov, Çaylı kənd sakini Yasin Əkbərov və başqaları çıxış edərək 2016-cı ildə Qazax rayonunda və yaşadıqları kəndlərdə görülmüş işlərə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər.

Milli Məclisin deputatları Kamran Nəbizadə, Ülviyyə Ağayeva, Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev və sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov hesabat yığıncağında iştirak və çıxış etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olunmuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

Elçin İSMAYIL

Gənclər böyük qüvvədir

2 fevral Gənclər Günü rayonumuzda böyük təntənə ilə qeyd edilmişdir

Gənclər Mərkəzində təşkil olunan tədbirdə idarə, müəssisə, təşkilat rəhbərləri, rayonda çalışan, təhsil alan fəal gənclər və tələbələr iştirak etmişdir.

Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək heykəli önünə gül dəstələri qoymuş və əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində olmuş, ümummilli liderin həyat və yaradıcılığından bəhs edən filmə baxmışlar.

Tədbirdə çıxış edən Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov gəncləri salamlayaraq qeyd etmişdir ki, dahi lider Heydər Əliyev Azərbaycan gəncliyini hər mənada güclü görmək istəyirdi. Odur ki, ümummilli lider 1994-cü illin iyulunda Azərbaycanda Gənclər və İdman Nazirliyi yaratdı və xalqının gənclərini bir araya topladı. 1996-cı il fevralın 2-də isə ilk dəfə müstəqil dövlətimizin gənclər Forumu keçirildi və ulu öndər Heydər Əliyevin elə həmin gün imzaladığı sərəncamla fevralın 2-si Azərbaycan gəncləri günü elan edildi. Gənclərə, gələcək nəslə çox böyük fikir verən, onların problemlərini hər zaman diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev tərəfindən gənclərin problemlərinin həlli üçün mühüm addımlar atılır. 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın təsdiqi, Gənclər Fondunun yaradılması, gənclər, onların sosial müdafiəsi ilə bağlı müxtəlif sərəncamların verilməsi gənc nəslə göstərilən diqqət və qayğının ən bariz nümunəsidir.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev məruzə ilə çıxış edərək bütün gəncləri Gənclər Günü münasibətilə təbrik etmiş, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rayonumuzda fəaliyyətə başladığı ilk gündən gənclərə böyük diqqət və qayğı ilə yanaşır, ictimai həyatın bütün sahələrində gənclərə böyük etimad göstərir.

Sonra BDU Qazax filialının Tələbə Gənclər Təşkilatının (TGT) sədri Nicat Məmmədli, Qazax Dövlət Sosial-İqtisadi Kollecin TGT-nın sədri Elvira Əfəndiyeva, RİHB Aparatında baş məsləhətçi Teybə Hüseynova, hüquq məsləhətçisi Vəfa Cəbiyeva, məsləhətçi Müşfiq Pirverdiyev, fəal gənc Fəridə İsgəndərova, gənc şair Mahmud Məmmədov çıxış edərək Azərbaycan gənclərinin bugünkü uğurlarından danışmış, onlara göstərdiyi diqqət və qayğıya görə Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər.

Tədbirdə təhsil sahəsində, rayonun ictimai-siyasi həyatında fərqlənən, Aprel döyüşlərinin iştirakçıları olan gənclərə Fəxri Fərman və qiymətli hədiyyələr verilmişdir.

Sonra gənc aşıq Şahin Süleymanov sazda qədim el havası ifa etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq gənclər günü münasibətilə rayonun bütün gənclərini bir daha təbrik etmiş və ən xoş arzularını bildirmişdir.

2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

HESABAT MƏRUZƏSİ

Bildiyiniz kimi, yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabnetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Ölkə başçısı 2016-cı ildə baş vermiş çətinliklərə baxmayaraq, Azərbaycanın öz inamlı inkişafını və eyni zamanda təhlükəsizlik tədbirlərini təmin etdiyini qeyd etmişdir.

Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur. Biz 2016-cı ildə müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və bu gözəl bayramı yaxşı nəticələrlə, uğurlarla qarşılamışıq.

Bildiyiniz kimi, iqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Ümumi daxili məhsul aşağı düşsə də, - bunun da əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır, - digər önəmli göstəricilər bizi sevindirir. Xüsusilə, ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5 faiz artmışdır. Bu, o deməkdir ki, bizim uzun illər ərzində apardığımız siyasət öz nəticəsini göstərmişdir.

Digər önəmli göstərici kənd təsərrüfatının inkişafıdır. Çünki hər bir ölkənin əsas inkişaf dinamikasını şərtləndirən sənaye və kənd təsərrüfatıdır. Kənd təsərrüfatında da görülmüş operativ tədbirlər nəticəsində inkişaf təmin edilmiş və kənd təsərrüfatı 2,6 faiz artmışdır. Keçən il nəqliyyat sektorunda önəmli hadisələr baş vermişdir. Xüsusilə Şimal-Cənub dəhlizinin yaradılması istiqamətində çox ciddi addımlar atılmışdır. Ölkəmizdə yaradılmış gözəl sərmayə iqlimi hesabına 8 milyard dollar xarici investisiya cəlb edilmişdir. Baxmayaraq, bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur və belə vəziyyətdə xaricdən investisiya gətirmək çox çətin məsələdir. Ölkəmiz buna nail olmuşdur.

2016-cı il bizim rayonumuz üçün də uğurlu il olmuşdur. Qazax rayonu üzrə 2016-ci ilin yerli gəlir və xərclərinin proqnozu 19.670.799 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6.614.000 manatını yerli daxilolmalar, 13.056.799 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 33,6 faiz, dotasiya isə 66,4 faiz təşkil etmişdir. 2016-cı ildə yerli daxilolmalar 6.614.000 manat proqnoza qarşı 6.799.163 manat və ya 102,8 faiz yerinə yetirilərək büdcəyə 185.163 manat, yəni 2,8 faiz çox vəsait mədaxil olmuşdur. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 92.186 manat və ya 1,3 faiz az vəsait daxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 94,5 faiz icra olunmuşdur. 2016-ci ildə yerli gəlirlər cəmi 22.694.894 manat proqnoza qarşı 22.155.258 manat, yəni 97,6 faiz yerinə yetirilərək bütövlükdə büdcəyə 539.636 manat az vəsait mədaxil olmuşdur. Bütövlükdə yerli gəlirlərin kəsrlə icra olunmasının səbəbi mərkəzləşdirilmiş xərclərdən dotasiyanın 724.799 manat kəsrlə alınması hesabına olmuşdur.

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir.

Ötən il ərzində 75 sahibkarlıq subyektinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9.715.100 manat verilmiş kreditlər hesabına 2016-cı ildə 432 yeni iş yerləri açılmışdır.

Hesabat ilində rayon üzrə əsas kapitala yönəldilən investisiyaların miqdarı 15.908.000 manat olmuşdur. Ümumi məhsul buraxılışının həcmi 176.134.000 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 3% çoxdur. 2015-ci illə müqayisə etdikdə kənd təsərrüfatı məhsulunun həcmi 3,1%, sənaye məhsulunun həcmi isə 7,3% artıq olmuşdur.

Rayon üzrə adambaşına düşən ümumi məhsulun həcmi 1.841 manat, orta aylıq əməkhaqqı 263 manat olmuşdur. Əhali tərəfindən rayonumuzun yaşayış məntəqələrində 192 fərdi yaşayış evləri tikilmişdir.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi 2016-cı ildə də uğurla davam etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səkkizinci dəfə rayonumuza rəsmi səfər etmişdir. Bu səfər zamanı Heydər Əliyev Fondunun dəstəyi ilə Qazax şəhərində inşa olunan, müasir tələblərə cavab verən, 940,8 m2 sahəsi olan 3 mərtəbəli Qazax Tarix-Diyarşünaslıq Muzeyinin, yeni tikilmiş uzunluğu 10 km olan Qazax-Kosalar avtomobil yolunun, 110/35/6 kv-luq Daş Salahlı yarımstansiyasının və "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" binasının açılışında iştirak etmişdir.

"Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" MMC-nin yaradılmasında əsas məqsəd kənd təsərrüfatına yararlı əkin sahələrindən səmərəli istifadə, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasıdır. layihə smeta dəyəri 3 mln 241 min manat olan MMC-nin tikintisinə may ayında başlanılmış və tikinti işləri oktyabr ayında başa çatdırılmışdır. "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" MMC sahəsi 560 kv.m olan inzibati bina və eyni zamanda tərəvəzlərin (kartof, soğan, kök) təmizlənməsi, yuyulması, qurudulması, çeşidlənməsi və paketlənməsi üçün sahəsi 600 kv.m olan sex və bir ədəd tutumu 2 min ton, sahəsi 600 kv.m olan anbardan ibarətdir. Təsərrüfatla bağlı maşın mexanizmlər alınmış və 250 kv.m sahədə Texnika parkı yaradılmışdır. 15 hektar torpaq şumlanaraq pilot suvarma sistemi qurulmuş və 211.50 hektar torpaq sahəsinin suvarılması üçün müasir yağmur suvarma sistemi xaricdən alınaraq gətirilmişdir. Hazırda təsərrüfatın ümumi əkin sahəsi 755.68 hektardır. Ondan 211.50 hektarı kartof, 411.18 hektarı taxıl, 103 hektarı şəkər çuğunduru, 30 hektar tütün sahəsidir. "Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı" MMC-də hazırda işçilərin sayı 37 nəfərdir, gələcəkdə işçilərin sayının 600-750 nəfərə çatdırılması nəzərdə tutulmuşdur. Hal-hazırda fermer təsərrüfatı öz işlərinə başlamışdır.

Rayonda Kənd Təsərrüfatı idarəsi üçün inşa edilən iki mərtəbəli, mansardlı binanın tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni qəsəbənin tikintisi başa çatdırılmış və məcburi köçkün ailələri həmin binalara köçürülmüşlər.

Bərpa Agentliyi tərəfindən Yuxarı Salahlı kənd tam orta məktəbdə əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Qazax şəhər 2,3,4 və 6 saylı körpələr evi-uşaq bağçalarında müasir isitmə sistemləri qurulub istifadəyə verilmişdir.

Rayonun Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq fermasının tikintisi başa çatmış, 25 nəfər işlə təmin olunmuşdur.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə başlanılmış, hazırda tikinti işləri davam etdirilir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni əhəng zavodlarının tikintisi davam edir. Həmin zavodlarda 450-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

"HGC GROUP" MMC (keçmiş "Qazax Sement zavodu" MMC) tərəfindən 2016-cı ildə 717.900 ton klinker və 626.356 ton sement istehsal edilmişdir. Hazırda MMC tərəfindən sement zavoduna yeni investisiya qoyuluşu ilə ildə 2 mln ton sement və gündəlik 5000 ton klinker istehsalı gücünə malik olan ikinci istehsal xəttinin tikintisinə hazırlıq işləri aparılır. Bu isə yeni iş yerlərinin açılmasına və rayon iqtisadiyyatının güclənməsinə xidmət edəcəkdir.

Qazax rayonunda "Azərxalça" ASC tərəfindən 160 iş yerlik Xalça fabrikasının tikintisi davam etdirilir.

Qaymaqlı kəndində fəaliyyət göstərən fermada lizinq yolu ilə gətirilmiş 75 baş düyədən 76 buzov alınmış, hazırda təsərrüfatda əlavə tikinti işləri başa çatmış və daha 100 baş cins düyələrin gətirilməsi istiqamətində danışıqlar aparılır.

Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq fermalarının tikintisi işləri davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi rayon xəstəxanasının yerində yeni 145 çarpaylıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisinə 2013-cü ilin oktyabr ayında başlanılmış və 2014-cü ilin mart ayından isə tikinti işləri dayandırılmışdır. Hal-hazırda hazırlıq işləri aparılır ki, bu ayın 15-dən tikinti işlərinə başlanılacaqdır.

"Azəravtoyol" ASC tərəfindən Bakı-Tbilisi avtomobil yolunun Qazax-Əskipara yolu ilə birləşdirən uzunluğu 6 kilometr olan Çaylı kəndinin içərisindən keçən avtomobil yolunun tikintisi işləri davam edir. 2017-ci ildə uzunluğu 7 km olan strateji əhəmiyyətli Cəfərli kəndini Qazax-Uzuntala avtomobil yolu ilə birləşdirən yolun tikintisinə başlanılacaqdır.

Yaxın vaxtlarda Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 31 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi nəzərdə tutulmuşdur.

Qazax şəhərində Şəhidlər Xiyabanı qəbiristanlığında abadlıq-bərpa işləri aparılmış, belə ki, 500 m2-dən çox döşəmə tamamilə dəyişdirilmiş, qəbir daşları və divarlar cilalanmış, çökmüş qəbirlər bərpa olunmuş, 400 m2 sahəyə qazon otu əkilmiş, şəhidlər bulağına su xətti çəkilərək xiyabanın yolu təmir olunmuşdur. Şəhər ərazisində olan bütün şəhid bulaqlarında təmir işləri aparılmışdır. Aprel ayında şəhid olmuş 3 nəfər şəhidimizin xatirəsinə şəhərin mərkəzində yeni bulaqlar tikilmişdir. Eyni zamanda rayonun Yuxarı Salahlı və Daş Salahlı kəndlərində Şəhidlər Xiyabanlarında təmir işləri başa çatdırılmışdır.

Rayonun girişində olan abidənin ətrafında yenidənqurma və abadlıq işləri aparılaraq şəbəkələr qurulmuş, 5000 m2 sahəyə qazon otu döşənmiş, həmin ərazinin suvarılması üçün su xətti çəkilmiş və işıqlanma sistemi qurulmuşdur. Həmin ərazidə Azərbaycanın ilk təyyarəçisi Fərrux Ağa Qayıbovun xatirəsinə təyyarə abidəsi ucaldılmışdır. Bundan əlavə, Bayraq Meydanında və Nərimanov qəsəbəsindəki dairəvi yolda əsaslı təmir işləri aparılaraq abidələr tamamilə yenidən qurulmuş, abidənin ətrafında geniş abadlıq-quruculuq işləri aparılaraq qazon otu əkilmiş və yeni işıqlanma sistemi quraşdırılmışdır.

Heydər Əliyev Parkı ərazisində yaradılmış süni gölün içərisində işıqlandırma sistemi ilə təchiz edilmiş yeni fəvvarə kompleksi quraşdırılaraq istifadəyə verilmişdir.

Qazax şəhərinin mərkəzində yerləşən "Fəxri qazaxlılar" parkında yenidənqurma işləri başa çatmış, parkın 4.443 m2 sahəsinə tamet döşənmiş, 1.656 p/m uzunluğunda bardür düzülmüş, yeni işıqlanma sistemi qurulmuş, yeni oturacaqlar qoyulmuş, qazon otu, dekorativ ağac və gül kolları əkilmiş, fontan kompleksi tamamilə yenidən qurulmuşdur.

Qazax şəhərində 24 çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı 2016-cı ildə Respublika Prezidenti İlham Əliyevin Sərəncamı ilə Qazax rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat vəsait ayrılmışdır. Həmin binalardan hazırda 10 binanın dam örtüyündə və fasad hissəsində təmir işləri başa çatmış, 14 binanın dam örtüyü dəyişdirilmiş, fasad hissəsində təmir işləri davam edir. Vətəndaşların müraciətlərinə əsasən əlavə 7 çoxmənzilli binalarda da təmir işlərinin aparılması nəzərdə tutulmuşdur.

Şəhərin prospekt və küçələrində olan 50-dən artıq yaşayış evinin dam örtüyü dəyişdirilərək 12.000 m2-ə yaxın dəmir kirəmit vurulmuş, 300 m2-ə yaxın hasar hörülmüş və evlərin fasad hissəsində və hasarlarda 5000 m2 suvaq işləri aparılmış, 30.000 m2-ə yaxın rənglənmə işləri, yaşayış evlərinə və məhəllələrə ümumilikdə 20 ədəd yeni giriş qapıları düzəldilmiş, 60-a yaxın giriş qapılarında isə təmir və rənglənmə işləri aparılmışdır.

Rayon ərazisində olan 10 ədəd çoxmənzilli yaşayış evlərinin həyətlərinə 8.000 m2-dən artıq asfalt örtüyü çəkilmişdir. Heydər Əliyev prospekti boyunca çalaların təmir olunmasına və həyətlərin giriş hissəsinə 60 tona yaxın asfalt örtüyü qoyulmuşdur.

2016-cı il ərzində şəhərin Heydər Əliyev prospekti boyunca, mərkəzi küçələrdə və parklarda abadlıq işləri aparılmış, 50.000 yeni ağac və gül kolları, 16.000 m2 sahəyə qazon otu, 12.000 ədəd qızılgül və gül kolları əkilmiş, 125 ədəd yeni işıq direkləri qoyularaq işıqlanma sistemi yenidən qurulmuşdur. Şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Qazax şəhərinin küçələrinə 20 km uzunluğunda, kənd yaşayış məntəqələrində isə 160 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə 428 p/m istinad divarlarının inşası başa çatmışdır. Bundan əlavə, rayon İcra Hakimiyyəti tərəfindən Məzəm kəndində yaşayış evlərinin həyətlərində ümumi uzunluğu 1381 p/m olmaqla, 4.143 m2 istinad divarı çəkilmişdir. İkinci mərhələ tikinti işlərinə başlanılmış, hazırda işlər davam edir.

Quşçu Ayrım kənd əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə yaşayış evlərinin düşmən mövqelərinə baxan pəncərələrinin hörülməsi üçün kənd sakinlərinə tikinti materialları verilmişdir. Bala Cəfərli və Xanlıqlar kəndlərinin hər birində bir imkansız ailə üçün yaşayış evinin tikintisi başa çatdırılmışdır. Bala Cəfərli kəndində 6 evin dam örtüyü tamamilə, 18 evin dam örtüyü isə qismən dəyişdirilmişdir. Quşçu Ayrım, Ürkməzli və Dəmirçilər kəndlərinin hər birində bir şəhid ailəsi və Dəmirçilər, Ürkməzli kəndlərinin hər birində bir Qarabağ müharibəsi əlilinin evlərində əsaslı təmir və əlavə tikinti işləri aparılmış, Xanlıqlar kəndində isə bir şəhid ailəsinin evinin döşəməsi dəyişdirilmişdir.

Əhalinin içməli suya olan tələbatını təmin etmək məqsədilə Ürkməzli kəndində bir ədəd 20 tonluq, 1 ədəd 16 tonluq su çəni və bir ədəd su nasosu quraşdırılmış, 2 km uzunluğunda su xətti, Dəmirçilər kəndində 1 km uzunluğunda içməli su xətti çəkilmişdir. Aslanbəyli kəndində 1 ədəd 5 tonluq su çəni quraşdırılaraq 350 metr uzunluğunda, Alpout kəndində 1 ədəd 25 tonluq su çəni quraşdırılaraq 700 metr uzunluğunda, Qazaxbəyli kəndində isə 1170 metr uzunluğunda içməli su xətti çəkilmişdir.

2016-cı il ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur. 2016-cı ildə qazılması nəzərdə tutulmuş 10 subartezian quyusundan Daş Salahlı kəndində 2 ədəd, Çaylı, Kosalar və Xanlıqlar kəndlərinin hər birində 1 ədəd olmaqla, cəmi 6 ədəd subartezian quyularının qazıntı işləri davam etdirilir. Fərəhli kəndində 200 hektar ərazinin suvarılması məqsədilə yeni suvarma şəbəkəsi quraşdırılmışdır. Eyni zamanda əvvəlki illərdə qazılmış və istifadyə verilməmiş 11 ədəd subartezian quyusundan 10 ədədi texniki şərt alaraq balansa götürülmüş və istifadəyə verilmişdir.

2016-cı ildə rayonumuzda olan 48.265 nəfər iqtisadi fəal əhalinin 47.415 nəfəri iqtisadiyyatda məşğul olanlardır.

Azərbaycan Respublikası "Regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. Belə ki, 2003-cü ildən bu günədək rayon üzrə 310 müəssisə yaradılmış, 12.161 daimi olmaqla 14.639 yeni iş yeri, o cümlədən 2016-cı ildə rayonda 20 yeni müəssisə yaradılaraq 2031 daimi olmaqla 2141 yeni iş yeri açılmışdır. Hesabat ilində Qazax rayon Məşğulluq Mərkəzinə 17 müəssisədən 282 boş iş yeri təqdim olunmuşdur. Mərkəzə 2.318 nəfər müraciət etmiş, onlardan 1.014 nəfəri işaxtaran kimi qeydiyyata alınmış, 773 nəfəri münasib işlə təmin olunmuşdur. 114 nəfərə işsizlik statusu verilmiş və 118 nəfərə müavinat təyinatı aparılmışdır. İdarə və müəssisələrdən boş iş yerlərində əməyin ödənişində minimum əməkhaqqı 109 manat, maksimum əmək haqqı isə 500 manat olmuşdur. Rayon ərazisində fəaliyyət göstərən 7 dövlət müəssisəsində 21 kvot iş yeri müəyyən edilmiş, 4 nəfər işlə təmin edilmişdir. Məşğulluq Mərkəzi ilə "Saloğlu" fərdi firması arasında bağlanmış dördtərəfli müqaviləyə əsasən 24 nəfər "Dərzi" peşə kursuna cəlb edilmiş, işsiz və işaxtaran vətəndaşlardan 10 nəfəri işlə təmin edilmişdir. Qazax rayon Məşğulluq Mərkəzi 2017-ci ildə rayonda fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri ilə daha sıx əlaqə yaratmalı və müraciət etmiş vətəndaşları vaxtında qeydiyyata almaqla işlə təmin olmalarına lazımi kömək göstərməlidir.

2016-cı ildə rayon üzrə 14.895 hektar əkin sahəsi olmuşdur ki, ondan 7926,5 hektar dənli və dənli paxlalılar, o cümlədən 5.559 hektar buğda, 2261 hektar arpa, 86,5 hektar vələmir, 20 hektar digər paxlalı bitkilərdir. Qarğıdalı 324 hektar, günəbaxan 46,5 hektar, kartof 433 hektar, tərəvəz 435 hektar, bostan 34,5 hektar, tütün 10 hektar, süpürgə 20,5 hektar, yonca 5.665 hektar olmuşdur. Bundan başqa 1.303 hektar meyvə bağı, 325 hektar üzüm bağı vardır.

2015-ci illə müqayisədə 2016-cı ildə 23998,4 ton dənli paxlalılar məhsulu istehsal olunmuşdur ki, bu da 5781,4 ton artıq, orta məhsuldarlıq 30,4 sentner, yəni 0,2 sentner artıq olmuşdur. Dən qarğıdalı 121 ton, günəbaxan 17 ton, kartof 4.185 ton, bostan məhsulları 43 ton, meyvə 155 ton artıq istehsal olunmuşdur. 2016-cı ildə rayonumuzda 10 hektar sahədə tütün əkilərək 15.635 kq quru tütün məhsulu və 1.502 kq barama istehsal olunmuşdur. 39 hektar sahədə yeni fındıq bağı salınmış, 4,5 hektar sahədə baramaçılığın inkişafı üçün 22.000 ədəd yeni tut (çətil) tingləri basdırılmışdır ki, bunun da 20.000 ədədi Çin Xalq Respublikasından gətirilmiş tinglərdir. 4.500 kq barama istehsalı üçün hazırlıq işləri aparılır. 2016-cı ilin payızında 2017-ci ilin məhsulu üçün 10.810 hektar sahədə, yəni ötən mövsümə nisbətən 3.049 hektar çox payızlıq taxıl əkilmişdir. Bundan 8.173 hektarı buğda, 2637 hektarı isə arpadır. 2016-cı ildə 2017-ci ilin yazlıq əkinləri üçün 1.346 hektar sahədə şum aparılmışdır. 2017-ci ildə 500 hektardan çox sahədə şəkər çuğunduru, 800 hektar kartof əkini, 50 hektardan çox sahələrdə tütün əkini nəzərdə tutulmuşdur.

2016-cı ildə "Aqrolizinq" ASC-nin Qazax rayon bölməsi tərəfindən istehsalçılara güzəştli qiymətlərlə 519 ton 730 kq mineral gübrələr və 1830 kq pesdisidlər satılmışdır. "Aqrolizinq" ASC-nin Qazax filialına 2016-cı ildə 1 ədəd kombayn, 3 ədəd traktor, 3 ədəd kotan gətirilmişdir. Ölkə Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli sərəncamına uyğun olaraq 2016-cı ildə 8.333 nəfər kənd təsərrüfatı istehsalçılarına əkin sahələrinin becərilməsinə görə yanacaq və motor yağı üçün 765744,80 manat subsidiya hesablanaraq verilmişdir. Tütün istehsalına görə subsidiyanın verilməsi üçün sənədlər respublika komissiyasına təqdim edilmişdir.

Kənd təsərrüfatı bitkilərindən yüksək məhsul alınması üçün əsas amillərdən biri bitkilərin vaxtında və kifayət qədər suvarma suyu ilə təmin olunmasıdır.

Suvarma Sistemləri İdarəsi tərəfindən 2016-cı vegetasiya ilində dəhnələrdən təsərrüfatlara 103,5 mln m3, ayrıclardan isə 74,4 milyon m3 su verilməsi planlaşdırılmış və həmin su ilə artan yekunla 40.018 hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarılması nəzərdə tutulmuşdur. Ötən ilin aprel-may aylarında hava şəraitinin yağmurlu keçməsi ilə əlaqədar suvarma suyuna tələbatın az olması nəticəsində il ərzində ayrıclardan təsərrüfatlara 74,4 mln m3 əvəzinə faktiki olaraq 60,0 mln m3 su verilmişdir ki, bununla artan yekunla 30.237 hektar əkin sahəsi suvarılmışdır ki, bu da nəzərdə tutulandan az olmuşdur.

Qazax Melioservis İdarəsi ilə Suvarma Sistemləri İdarəsi arasında bağlanmış müqavilə əsasında rayonun Şıxlı, Naqornı, Axmaz, Daş Salahlı, Aslanbəyli və Qanırma arxlarında 279 min m3 həcmində, idarənin öz gücü hesabına isə Daş Salahlı, Kosalar, Zor, K-1 kanalı, Çaylı, Dəmirçilər, Kommuna, Gözət, İkinci Şıxlı təsərrüfatdaxili arxlarında 439 min m3 iş görülmüşdür. Birinci Şıxlı, Aslanbəyli və Salahlı düzənliyi 1-ci pillə nasos stansiyalarının su təminatının yaxşılaşdırılması üçün Kür çayından artan yekunla 150 min m3 həcmində çay məcralarının təmizlənməsi işləri aparılmışdır.

Meşələrin bərpası üçün 2016-cı ilin yazında və payızında 280.500 ədəd müxtəlif növ tinglər basdırılmışdır.

Heyvandarlığın inkişaf etdirilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir. İl ərzində lizinq yolu ilə 10 baş Holştein-friş, simmental cinsindən olan inək gətirilmişdir. Hazırda rayonda 196 baş cins mal-qara vardır. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün il ərzində 404 baş iribuynuzlu heyvanlarda süni mayalanma aparılmış, 262 bala alınmışdır. 2016-cı il oktyabr ayının 1-dən etibarən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə dövlət tərəfindən 100 manat subsidiya verilməsi təmin edilmişdir ki, oktyabr, noyabr aylarında Qazax rayonunda süni mayalanma nəticəsində 17 baş buzova görə 16 nəfər vətəndaşa 1700 manat subsidiya ödənilmişdir. Dekabr ayında doğulmuş 19 baş buzova görə subsidiyanın verilməsi üçün müvafiq sənədlər respublika komissiyasına təqdim olunmuşdur. Heyvandarlıq sahəsində məhsul istehsalı artmaqdadır. Belə ki, 2016-cı ildə ötən ilə nisbətən 1169 ton artıq süd istehsal olunaraq 31172 tona, 83 ton (diri çəkidə) artıq ət istehsal olunaraq 5.584 tona və 152.000 ədəd çox yumurta alınaraq 11.653.000 min ədədə, iribuynuzlu mal-qaranın baş sayı 941 baş artaraq 31.130 başa çatdırılmışdır.

Qazax rayon Baytarlıq İdarəsi tərəfindən 2016-cı ildə epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30.111 baş iribuynuzlu, 7008 baş iribuynuzlu cavanlar və 1.757 baş təkdırnaqlılar, 136.970 baş xırdabuynuzlu heyvanlar qarayara, 78.103 baş iribuynuzlu heyvanlar, 104.685 baş xırdabuynuzlu heyvanlar dabaq, 5.806 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. Həmçinin 245.650 baş körpə ev quşları taun xəstəliyinə qarşı La-Sota ilə, 191.135 baş yetkin ev quşları isə taun xəstəliyinə qarşı "H" vaksini ilə peyvənd olunmuşlar.

(Davamı səh.3-də)

2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

HESABAT MƏRUZƏSİ

(Əvvəli səh.2-də)

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2016-cı ildə ödəniş müəssisələrinə 36.765.000 manat vəsait köçürülmüşdür. Şöbədə 2016-cı ildə sosial sığorta haqları üzrə yığım proqnozu 87,0 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə 4.469.400 manat proqnoza qarşı 3.938.500 manat, yəni 88,1 faiz, qeyri-büdcə təşkilatları üzrə 1.161.300 manata qarşı 956.300 manat olmaqla, 82,3 faiz, o cümlədən, hüquqi

şəxslər üzrə 91 faiz, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə 75 faiz, pay torpaq mülkiyyətçiləri tərəfindən 16,5 faiz yerinə yetirilmişdir. 2016-cı il ərzində fond tərəfindən 1.695 ailənin 6981 üzvünə 3.099.000 manat ünvanlı sosial yardım təyin edimiş və ödənilmişdir. Respublikanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak edən 2310 nəfər müharibə veteranına 1.316.000 manat müavinət və 3215 nəfərə 2.996.300 manat sosial müavinət ödənilmişdir.

Respublika Prezidentinin 28 dekabr 2016-cı il tarixli Fərmanı ilə şəhər və rayon İcra Hakimiyyətlərinə ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam ödənilməsini təmin etmək üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları ilə birlikdə tədbirlər həyata keçirilməsi tapşırılmışdır.

Hesabat ili ərzində əhaliyə göstərilən ticarət, nəqliyyat, rabitə və məişət xidməti sahələrində də bir sıra işlər görülmüşdür.

Qazax Telekommunikasiya Qovşağı cari ildə planı 102 faiz yerinə yetirmiş və ötən müddət ərzində 258 ədəd yeni telefon xətti çəkilərək vətəndaşların istifadəsinə verilmişdir. Lakin vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq yeni nömrələrin alınması və internet xətlərinin sürətlərinin nizamlanması məqsədilə Telekommunikasiya Qovşağının rəhbərliyi bu sahəyə diqqəti artırmalı və yuxarı təşkilatlar qarşısında məsələ qaldırmalıdır.

Qazax Poçt filialı 2016-cı il ərzində planı 112 % yerinə yetirərək əhalidən elektrik enerjisi, təbii qaz, su, telefon, vergi və s. pulları qəbul ediib aidiyyəti təşkilatların bank hesablarına köçürmüşdür. Əlavə olaraq 8.577 ədəd məktub göndərilmiş, 10.020 ədəd məktub qəbul edilmişdir.

"Qazax-Avtovağzal" ATSC tərəfindən 2016-cı ildə 306.215 sərnişinə xidmət göstərilmişdir. Avtovağzalda təmir işləri aparılmışdır.

28 saylı Yol İstismar İdarəsi 58 km respublika əhəmiyyətli, 134 km yerli əhəmiyyətli avtomobil yollarına və uzunluğu 914 p/m olan 23 ədəd körpülərə xidmət edir. İdarə tərəfindən 2016-cı ildə Qazax-Kosalar avtomobil yolu keyfiyyətlə tikilərək istifadəyə verilmiş, hazırda Çaylı kəndi ərazisində yeni avtomobil yolunda tikinti işləri davam etdirilir.

Qazax Mənzil İstismar Sahəsinin balansında olan 3 yaşayış binasının dam örtüyündə, 19 binanın blok və fasad hissəsində əsaslı, 35 binanın dam örtüyündə və 11 binanın kanalizasiya sistemində cari təmir işləri aparılmış, 20 binanın 95 mənzilində tüstü bacası və hava təmizləyici kanalı təmizlənərək sakinlərin istifadəsinə verilmişdir. Mənzil İstismar Sahəsi tərəfindən 8 binanın həyətinə qum-çınqıl tökülərək yayılmış, sakinlərin rahat gediş-gəlişinə şərait yaradılmışdır.

Qazax Kommunal Müəssisələr Kombinatı əsasən şəhərin təmizliyi və yaşıllaşdırılması işi ilə məşğul olur.

2016-cı ildə kombinata 350.369 manat vəsait daxil olmuşdur. 2015-ci ildə isə bu rəqəm 193.950 manat olmuşdur ki, hesabat ilində kombinata 156.419 manat çox vəsait daxil olmuşdur. İşsizliyin aradan qaldırılması məqsədilə 2016-cı ildə kombinatın yaşıllaşdırma və təmizlik sahələrinə 100 nəfər işçi qəbul olunmuşdur. Nasaz vəziyyətdə kombinatın balansında olan maşın və mexanizmlərin nasazlıqları aradan qaldırılmış, əlavə olaraq 1 ədəd DT markalı traktor, 1 ədəd QAZ-53 markalı zibil daşıyan avtomaşın, 1 ədəd traktor qoşqusu alınaraq kombinatın istifadəsinə verilmişdir. Şəhərin təmizliyinin tam bərpa olunmasını həyata keçirmək məqsədilə zibillərin götürülmə qrafikləri dəyişdirilmiş, əvvəllər yalnız səhərlər zibilləri götürülən yerlərdə zibillərin axşam-səhər götürülməsi və ayda bir-iki dəfə zibilləri götürülən yerlərdə isə həftədə bir dəfə, lazım gəldikdə gündəlik götürülməsi öz müsbət nəticəsini vermişdir. Bundan əlavə, şəhərdən kənarda yerləşən zibil poliqonunun ətrafı dəmir tor vasitəsilə hasara alınmış, müntəzəm nəzarət olunması üçün poliqona məsul şəxs təyin olunmuşdur. Kommunal Müəssisələr Kombinatı öz işlərini daha da yaxşılaşdırmalı və təmizlik işlərini gücləndirməlidir.

Hesabat ilində əhalinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Elektrik Şəbəkəsi tərəfindən 2016-cı ildə cəmi pul yığımı 5.136.400 manat yerinə yetirilmişdir. Ümumi yığım 94,6%, o cümlədən yerli əhali üzrə 96,6% olmuşdur. 2015-2016-cı illərin göstəricilərini müqayisə edərkən 2016-cı ildə şəbəkə üzrə cəmi pul yığımında 411,7 min manat, əhali sektorunda isə 145,6 min manat artım olmuşdur.

2016-cı il ərzində əhali tərəfindən tikilən 145 evə və 15 qeyri əhali abonentinə elektrik xətti çəkilmişdir. Bildiyiniz kimi, Dövlət Proqramında Qazax rayonunun elektrik daşıyıcılarının SİP kabellə əvəz olunması işlərinə başlanılmışdır. İstismar vaxtını keçmiş dəfələrlə təmir olunmuş 22 ədəd müxtəlif güclərdə olan transformatorlar yeni komplekt transformatorlarla əvəz edilmiş, həmin transformatorlardan çıxan 0,4 kv-luq hava xətti 33,9 km uzunluğunda SİP kabellə əvəz edilmiş, 1696 ədəd metal dayaq quraşdırılmışdır. Əlavə olaraq fəaliyyətdə olan 4 ədəd transformatorun 0,4 kv-luq tərəflərində (Qazax şəhəri, Ağköynək və Birinci Şıxlı kəndləri) 13,8 km uzunluğunda SİP kabel çəkilmiş və 818 ədəd metal dayaq quraşdırılmışdır.

35/10 kv-luq Qazax-1 yarımstansiyasında 4 mvA transformator 6,3 mvA ilə, Kompressor yarımstansiyasında isə 1,0 mvA transformator 2,5 mvA transformatorlarla əvəz edilmişdir. 35/10 Qazax-1 yarımstansiyası tamamilə yenidən qurulmuşdur. Qazax şəhərini, eləcə də 21 yaşayış sahəsini iki tərəfli qidalandırmaq üçün 18,9 km uzunluğunda 35 kv-luq hava xətti çəkilmiş, 35/10 kv-luq "Cəfərli" və "Vaqif" yarımstansiyalarında əlavə 35 kv-luq yağ açarları və xətt ayrıcı quraşdırılaraq sxemaya qoşulmuşdur. 11,2 km uzunluğunda "Xramçay" hava xətti tam yenidən qurulmuşdur. 0,4 kv-luq xətlərdə 15,25 km uzunluğunda cari təmir işləri aparılmış, 168 ədəd zədəli ağac dayaqlar yeni dayaqlarla əvəz edilmiş, 6,07 km uzunluğunda zədəli naqil, 787 ədəd zədəli izolyator dəyişdirilmişdir.

Şəmkir rayon Qaz İstimar İdarəsi tərəfindən 2016-cı ildə cəmi pul yığımı 12.030.106 manat olmuşdur. Ümumi yığım 100,9%, o cümlədən yerli əhali abonentləri üzrə 88,01% olmuşdur. 2015-2016-cı illərin göstəricilərini müqayisə edərkən 2016-cı ildə yığım 15,1% artıq olmuş, itki 3,4% azalmışdır. Rayon üzrə qazlaşma 100 faiz başa çatdırılmışdır. Ümumilikdə 2016-cı ildə 664 nəfər yeni abonent təbii qazla təmin olunmuşdur. 2016-ci il ərzində 810 ədəd məişət qaz sayğacları yeni qaz sayğacları ilə əvəz edilmiş, rayon ərazisində müxtəlif diametrli 2095 p/m korroziyaya uğramış qaz xətləri yenisi ilə əvəz edilmiş, məcburi köçkünlərin məskunlaşdığı evlərə D15-20 mm-lik 100 p/m qaz xətti çəkilmişdir. Qazax rayonu ərazisində əhalinin qaz təminatının yaxşılaşdırılması üçün 12 ədəd müasir şkaf tipli tənzimləyici quraşdırılmışdır.

Qazax "Su-kanal" İdarəsi tərəfindən 2016-cı il ərzində 57 abonentə yeni su xətti çəkilmiş, 5993 əhali abonetlərinə (18340 nəfər) xidmət göstərilmişdir. İl ərzində əhali abonentlərindən ödəniş satışın 92,4 faizini, cəmi ödəniş isə satışın 89,4 faizini təşkil etmişdir. 2015-ci illə müqayisədə satış 64590 manat, ödəniş isə 14564 manat artmışdır.

Su Quyularının İstismarı İdarəsinin Qazax İstismar sahəsinin balansında 146 ədəd subartezian quyusu vardır. 58 ədəd subartezian quyusunda əsaslı, 60 ədəd subartezian quyusunda cari təmir işləri aparılmışdır.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 7 ibtidai məktəb, 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11.691 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.713 nəfər müəllim məşğul olmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin 29 aprel 2016-cı il tarixli Sərəncamı ilə 01.07.2016-cı il tarixdən etibarən Azərbaycan Dövlət Pedoqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı elan edilmişdir. 2016/2017-ci tədris ilində 6 ixtisas üzrə tələbə qəbulu aparılmışdır. Filialda respublikanın 40-dan çox rayonundan 388 nəfər tələbə təhsil alır. 2017/2018-ci tədris ili üçün filiala 13 ixtisas üzrə 500-ə yaxın tələbə qəbulu planlaşdırılmışdır. Filialın yeni tədris binasının tikintisi ilə bağlı 8 hektar torpaq sahəsinin ayrılması məqsədilə sənədləşmə işləri aparılır, yaxın zamanlarda tikinti işlərinə başlanılması nəzərdə tutulur.

2015-2016-cı tədris ilində 846 nəfər məzunlarından 468 nəfəri, əvvəlki illərin məzunlarından 50 nəfəri, cəmi 518 nəfər TQDK-ya sənəd vermiş, onlardan 319 nəfəri ali məktəblərə, 88 nəfəri isə orta ixtisas təhsili məktəblərinə daxil olmuşlar. Qəbul olmuş məzunlardan 78 nəfəri 300-dən 400-ə qədər, 65 nəfəri 400-dən 500-ə qədər, 58 nəfəri 500-dən, 19 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Rayon üzrə qəbulun nəticəsi 63 faiz olmuşdur. Ali hərbi və xüsusi təyinatlı təhsil müəssisələrinə 9 nəfər daxil olmuşdur. Hazırda respublikanın ali hərbi və xüsusi təyinatlı müəssisələrində 46 nəfər, hərbi liseylərdə isə 15 nəfər təhsil alır. Şəhər 2 saylı tam orta məktəbin məzunu Mirzəyev İlham və məktəb-liseyin məzunu Məmmədova Leyla təhsillərini yüksək nailiyyətlərlə başa vurduqlarına görə Təhsil Nazirliyi tərəfindən "Qızıl medala" layiq görülmüşlər. Ali məktəblərə qəbul imtahanlarında Mirzəyev İlham 690 balla Azərbaycan Diplomatiya Akademiyasının kompyuter mühəndisliyi, Məmmədova Leyla 682 balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Canalı kənd tam orta məktəbin məzunu İsmayılova Səbinə Emil qızı respublika üzrə 700 bal toplayan 10 məzundan biri olaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur. Ötən müddət ərzində təhsil sisteminin informasiyalaşdırılması sahəsində də müəyyən işlər görülmüşdür. Təhsilin informasiyalaşdırılması sahəsində Dövlət Proqramının icrası nəticəsində hazırda hər 20 şagirdə bir kompyuter düşür. Rayonun 26 məktəbi internet şəbəkəsinə qoşulmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində 2016-cı ilin noyabr ayında IX-XI sinif şagirdlərindən 40 nəfərinin Lənkəran-Masallı-Astara bölgəsinə ekskursiyası təşkil olunmuşdur. Təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış fəal müəllimlər qrupu tərəfindən müəllimlərin hazırlıq səviyyəsini, şagirdlərin məktəbə davamiyyətini öyrənmək üçün vaxtaşırı reydlər keçirilir. Rayonun Ağköynək kənd tam orta məktəbin biologiya müəllimi Əmirxanova Sədaqət Əmirxan qızı 2016-cı ildə Prezident Sərəncamı ilə "Əməkdar müəllim", şəhər Humanitar və Təbiət fənləri üzrə məktəb-liseyin təlim-tərbiyə işləri üzrə direktor müavini Muradov Rəhim Murad oğlu "Tərəqqi" medalına layiq görülmüşdür. Bundan başqa, Təhsil Nazirliyinin əmri ilə rayonun Səməd Vurğun adına şəhər 2 saylı tam orta məktəbin direktoru Mustafayev Murğuz Nəbi oğlu "Qabaqcıl Təhsil işçisi" döş nişanına, Fərəhli kənd ümumi orta məktəbin riyaziyyat-informatika müəllimi, direktor vəzifəsini icra edən Həsənov Ramin Əhməd oğlu "Fəxri Fərman"la təltif edilmişlər.

Qazax rayon mərkəzi xəstəxanasına 2016-cı ildə ambulator müraciətlər 119.235 nəfər olmuşdur. Onlardan 1230 nəfəri rentgen-flüoqrafiya, 5098 nəfər laborator müayinə olunmuş, 408 nəfərin isə üzərində əməliyyatlar (cərrahi) aparılmışdır. Uşaqlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Uşaqlar arasında qoruyucu peyvəndlər müntəzəm olaraq aparılır.

Respublika Prezidentinin tapşırıq və tövsiyəsi əsasında Səhiyyə şöbəsi tərəfindən rayon əhalisi kütləvi olaraq tibbi müayinələrə cəlb olunmuş, müayinə nəticəsində 3.018 nəfər ambulator, 246 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 43 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir. Həmçinin rayonda keçirilmiş qanvermə aksiyasında 70 litr qan tədarük olunaraq Respublika və Gəncə "Qan Bankı"na göndərilmişdir. 2016-cı ildə Qazax RMX-da müxtəlif xəstəlik qrupları üzrə 5940 nəfər imtiyazlı xəstə qeydiyyatda dayanıb. Onlardan 2660 nəfər şəkərli diabet, 325 nəfər vərəm, 625 onkoloji və 2305 nəfər digər imtiyazlı qrup xəstələridir. 2016-cı il ərzində Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat mərkəzindən tələbnaməyə uyğun olaraq, 625750 manat məbləğində dərman və sarğı materialları xəstəxanaların aptekinə daxil olmuşdur. Bundan şəkərli diabet xəstələri üçün 400901 manat, vərəmli xəstələrə 20469 manat, onkoloji xəstələrə 12000 manat, ruhi xəstələrə 24000 manat, digər qrup əlillərə 19760 manat xərclənmişdir. Şəhər və kəndlərdə yerləşən xəstəxana, həkim məntəqələri və tibb məntəqələrinə isə 148570 manat məbləğində dərman və sarğı materialları yönəldilmişdir. Vərəmli, şəkərli diabet və onkoloji xəstələrin aşkarlanaraq müalicəyə cəlb edilməsi gücləndirilmiş, həmin xəstələr vaxtaşırı müntəzəm olaraq, pulsuz dərman pereparatları ilə təmin edilirlər. Bu günə qədər 1750 xəstəyə qanda şəkərin miqdarını təyin edən "Qlukometr" aparatı paylanmışdır.

Rayonda fəaliyyət göstərən Müalicə Diaqnostika Mərkəzinin carrahiyyə şöbəsinə 1025 xəstə daxil olub, 823 cərrahi əməliyyat aparılmışdır.

Rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən 2016-cı ildə 62 mədəni-kütləvi tədbir, bayram konsertləri, şənliklər, yubileylər, sərgilər, əlamətdar günlər və müsabiqələr keçirilmişdir.

Qazax rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ildə gənclərlə iş sahəsi üzrə 19, bədən tərbiyəsi və idman sahəsi üzrə 34 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 5.095 nəfər yeniyetmə və gənc iştirak etmişdir. 2016-cı il ərzində beynəlxalq yarışlarda idmançılarımız 23, respublika yarışlarında isə 68 dəfə mükafata layiq yerlər tutmuşlar. İdmançılarımızdan Əsgər Məmmədəliyev, Əşrəf Aşurov, Elşən Eyyubov, Elnarə Abbasova, Sona Məmmədova, Fərid Məmmədov, Nəsib Yusibov, Fərid Hüseynov, Ceyhun Mədədli, İsmayıl Osmanov, Nemət Vəkilov, Ramazan Rüstəmov, Əli Əlizadə, Tapdıq Paşayev, Sənan Xəlilov, Emin Namazov, Qurban İsmayılov, Yaqub Manafov, İsrafil Məmmədov, Həsənəli Həsənov, Əfqan Xaşalov, Sərxan Qasımlı, Ruzi Məmmədzadə və Nurlan Məmmədzadə daha yaxşı nəticələr göstərmişlər.

Rayonda 4 siyasi partiya, 17 ictimai birlik və 4 dini icma fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyasının 7853 nəfər, digər partiyaların isə cəmi 251 nəfər üzvü vardır.

2016-cı ildə gənclərin ordu sıralarına çağırışı və gənclərin hərbi vətənpərvərlik

ruhunda tərbiyəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı ildə imzaladığı Fərmanlara müvafiq olaraq Azərbaycan Respublikasında vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışı ilə əlaqədar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsi tərəfindən çağırışçıların təyin olunduqları hərbi hissələrə göndərilməsi tam mütəşəkkil və vaxtında təmin edilmişdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Yardım Fonduna vəsaitlərin toplanması ilə bağlı aparılmış məqsədyönlü işlərin nəticəsidir ki, 2016-cı ildə ümumilikdə 35610,47 manat vəsait köçürülmüşdür.

2016-cı ildə də yerli İcra Hakimiyyəti orqanlarının hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir. Hesabat ilində rayonda mövcud olan kriminogen vəziyyətin təhlili və qanun pozuntularına qarşı aparılan mübarizə tədbirlərinə dair rayonun hüquq-mühafizə orqanları tərəfindən görülmüş işlər qanunun aliliyini, insan hüquqları və azadlıqlarının etibarlı müdafiəsini, cinayətkarlığa qarşı barışmaz mübarizəni təmin etmək zəruri tədbirlərdən biri kimi hesab edilir. Qazax rayonu ərazisində 2016-cı ildə icraatda olan 200 cinayət hadisəsinin, o cümlədən keçən ildən 4 bağlı qalmış cinayət işinin açılması təmin edilmiş, 19-u isə bağlı qalmışdır. Cinayətlərin açılması 91,3 faiz təmin edilmişdir. Hesabat dövrü ərzində 62 cinayət qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərdən 64 cinayət hadisəsinin açılması təmin edilmiş, 11-i isə bağlı qalmışdır. Cinayətlərin açılması 85,3 faiz olmuşdur. Hesabat dövrü ərzində keçirilmiş tədbirlər nəticəsində narkotiklə bağlı 18 fakt aşkar edilmişdir. Onlardan 5 fakt satış, 11 fakt saxlama, 1 ədəd faktı aşkar edilmişdir. Ümumilikdə, 2 kq 267 qram müxtəlif növ narkotik maddələr dövriyyədən çıxarılmışdır.

2016-cı ildə Azərbaycan Respublikası Ərazilərinin Minalardan təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) tərəfindən Qazax rayonu ərazisində 64 ədəd müxtəlif növ hərbi sursatlar zərərsizləşdirilmişdir.

Şəhərin və rayonun kəndlərinin sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələrin və yerli İcra Hakimiyyəti orqanlarının Əlaqələndirmə Şurasının fəaliyyətində müsbət dönüş yaradılmışdır. Bələdiyyə torpaqlarından və onların mülkiyyətində olan əmlaklardan qanunvericiliyə uyğun olaraq istifadə olunmasına müntəzəm nəzarət olunur. Qazax rayonunun ümumi istifadəsində olan 69.229 hektar torpaq sahəsinin 15.402 hektar dövlət mülkiyyətində saxlanılmış, 29.353 hektarı bələdiyyə mülkiyyətində, qalan 24.474 hektarı isə xüsusi mülkiyyətə verilmişdir. İl ərzində rayon üzrə keçirilmiş 9 torpaq müsabiqəsində 22.000 m2 torpaq sahəsi 2 nəfərə kənd təsərrüfatı məqsədilə icarəyə verilmiş, 1694 m2 torpaq sahəsi sahibkarlıq məqsədilə 7 nəfər fiziki şəxsə satılmışdır.

2015-ci illə müqayisədə 2016-cı ildə Qazax rayon İcra hakimiyyəti Başçısının Aparatına daxil olmuş müraciətlərin sayı artmışdır. İl ərzində rayon İcra hakimiyyətinə 1493 müraciət daxil olmuşdur. Bilavasitə rayon İcra Hakimiyyətinə vətəndaşlar tərəfindən ünvanlanan müraciətlərin sayı artmış, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına ünvanlanan müraciətlərin sayı azalmışdır. Belə ki, 2015-ci il ərzində İcra Hakimiyyətinə 480, Prezident Administrasiyasına 311 müraciət, 2016-cı il ərzində isə İcra Hakimiyyətinə 1101, Prezident Administrasiyasına 300 müraciət daxil olmuşdur. Ümumilikdə, 2016-cı il ərzində rayon İcra Hakimiyyətinə 223 məcburi köçkün, 55 şəhid ailəsi, 46 Qarabağ müharibəsi əlilləri, 18 Qarabağ müharibəsi veteranı müraciət etmişdir. (bundan 68-i müsbət həll olunmuş, 274-nə müvafiq izahat verilmişdir). Müraciətlərin böyük əksəriyyəti sosial müdafiə, mənzil problemlərinin həll edilməsi, işlə təmin olunma və digər məsələlər barəsində xahişlərdən ibarətdir. Ərizələrin bir hissəsi müsbət həll olunmuş, xahişlərin reallığı nəzərə alınaraq vətəndaşlara müvafiq kömək göstərilmiş və ya əsaslandırılmış cavab verilmişdir. 2016-cı ildə rayon İcra Hakimiyyəti Başçısının Aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 26,2 faizi mərkəzi orqanlardan, 73,8 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 22,3 faizi müsbət həll olunmuş, 3,3 faizi qismən həll olunmuş, 0,2 faizi əsassız sayılmış, 72,8 faizinə müvafiq izahat verilmiş, 1,3 faizi aidiyyəti üzrə göndərilmiş, 0,1 faizinin icrası Dövlət Proqramında nəzərdə tutulmuşdur. 2016-cı ildə təsdiq edilmiş qrafik üzrə rayon İcra Hakimiyyəti Başçısının qəbulunda 2240 nəfər və 46 səyyar görüşlər zamanı keçirilən qəbullarda 19750 nəfər rayon sakini iştirak etmişdir. Qəbullar dövlət hakimiyyəti orqanlarının, yerli qurumların rəhbərlərinin, rayon İcra Hakimiyyəti Başçısının İnzibati Ərazi Dairələri üzrə Nümayəndələrinin və bələdiyyə sədrlərinin iştirakı ilə təşkil olunur. Səyyar qəbullarda müraciət etmiş 498 nəfərin irəli sürdükləri 323 məsələdən 170-i həll edilmiş, 147-si əsasında aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmış, 6-sı əsasında isə müvafiq işlər aparılır.

Bildiyiniz kimi, 26 sentyabr 2016-cı il tarixdə ölkəmizdə ümumxalq səsverməsi (referendum) keçirilmişdir. 107 saylı Qazax DSK və 106 saylı Tovuz-Qazax-Ağstafa DSK-ları nəzdində 48 seçki məntəqəsi mövcud olmuşdur. Rayon üzrə ümumilikdə 59.689 nəfər seçici vardır. Səsvermənin hazırlanması və keçirilməsi prosesi yüksək səviyyədə təşkil olunmuş və heç bir qanun pozuntusuna yol verilməmişdir.

2017-ci ilin yanvar ayından başlayaraq rayon İcra Hakimiyyəti Başçısının İnzibati Ərazi Dairələri üzrə Nümayəndəliklərində hesabat seçki yığıncaqları keçirilmişdir. Hesabatlar şəhər və kənd sakinlərinin yüksək fəallığı ilə keçirilmiş, yığıncaqlarda söylənilmiş təkliflər ümumiləşdirilərək rayon İcra Hakimiyyətinin müvafiq şöbəsinə təqdim olunmuşdur. Təkliflər əsasən yeni uşaq bağçaları və körpələr evinin, həkim məntəqələrinin tikilməsi, kəndarası yolların təmir edilməsi, içməli və suvarma suyu ilə təmin olunmaları, Kür çayı sahili boyunca sahilbərkitmə işlərinin davam etdirilməsi, məcburi köçkünlərin və imtiyazlı ailələrin yaşayış şəraitinin yaxşılaşdırılması üçün yeni yaşayış binalarının tikilməsi və kəndlərdə yeni artezian quyularının qazılmasına dair olmuşdur.

Yekunda Respublika Prezidenti İlham Əliyev cənablarını əmin etmək istəyirik ki, 2017-ci ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün bütün qüvvəmizi səfərbər edərək daha uğurlu nəticələr əldə edəcəyik və Dövlət Başçısının Qazax rayonuna göstərdiyi diqqət və qayğıya əməli işimizlə cavab verəcəyik.

“Mən hər zaman sizin yanınızdayam”

Xalqın arasında olmaq, əhalini narahat edən problemləri onların dilindən eşitmək məqsədilə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun rayon sakinləri və eləcə də məcburi köçkünlərlə keçirdiyi görüşlər artıq ənənə şəklini almışdır.

Belə ki, icra başçısı mütəmadi olaraq kəndlərə və məcburi köçkünlərin yerləşdiyi yaşayış məntəqələrinə gedir, mövcud çatışmazlıqları yerindəcə öyrənərək lazımi tapşırıqlar verir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Qazaxbəyli kəndində məcburi köçkünlər üçün yeni salınmış qəsəbədə olmuş, qəsəbədəki bağça binasına baş çəkərək lazımi tapşırıq və tövsiyələrini verdikdən sonra qəsəbədə məskunlaşmış məcburi köçkünlərlə görüşmüşdür.

Görüşə toplaşanlar icra başçısını böyük səmimiyyətlə, ən yaxın və ən doğma insan kimi qarşılamışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov qəsəbə sakinlərini salamladıqdan sonra çıxış etmişdir. Bildirmişdir ki, mən buraya məcburi köçkünlərin yerləşdiyi “Göy bina” deyilən yaşayış massivindən gəlirəm. Orada heç bir problem yoxdur. Yaxın vaxtlarda həmin bina da təmir olunacaqdır. Sizinlə görüşməyimin məqsədi sizi narahat edən məsələləri elə sizin öz dilinizdən eşitmək və onları aradan qaldırmaqdır. Bildiyiniz kimi rayonumuzda tikinti-quruculuq işləri davam edir. Yeni iş yerləri yaradılır. Kənd təsərrüfatının bütün sahələrində əkinlər iki dəfə artıb. Bu gün demək olar ki, Qazaxda əkilməmiş məhsul verən torpaq sahəsi qalmayıb. Bu qəsəbədə də qaz, işıq, istilik barədə heç bir problem yoxdur. Mən bildiyimi və gördüyümü sizinlə bölüşdüm. İndi söz sizindir. Deyin görək hansı çatışmazlıqlar var.

Ağsaqqal Nüsrəddin Hacıyev söz alaraq onlarla görüşə gəldiyinə görə, məcburi köçkünlərə diqqət və qayğı göstərdiyinə görə bütün qəsəbə sakinləri adından Rəcəb Babaşova öz dərin minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, bu gün rayonda sağlam mühit, əmək intizamı, şəffaflıq yaranıb. Hamı öz sözünü deyə bilir. Bu da ondan irəli gəlir ki, siz icra başçısı kimi həmişə xalqın içində olursunuz. Siz sərhəd kəndində olanda özünüzü həmin kəndin sakini, məcburi köçkünlərlə görüşəndə isə özünüzü bir məcburi köçkün kimi hesab edirsiniz. Sizin bizim qəsəbəyə gəlişinizin artıq sayı bilinmir. Bu gün qəsəbədə demək olar ki, hər şeyimiz var.

Bağanıs Ayrım kəndindən olan məcburi köçkünlərdən Zərbəçi Xasayev, Ramiz Adıgözəlov, Aşağı Əskipara kəndindən olan məcburi köçkünlərdən Tünzalə Əsgərova, Şəfiqə Əliyeva, Sevda Hacıkərimova və başqaları çıxış edərək öz arzu və istəklərini bildirmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sakinləri diqqətlə dinlədikdən sonra qaldırılan məsələlərin həlli istiqamətində yerindəcə göstəriş vermiş və bildirmişdir ki, həmin məsələlər yaxın günlərdə öz həllini tapacaqdır.

Görüşdə məcburi köçkünlər onlara göstərilən diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Cəfərli, Yuxarı Salahlı, Aşağı Salahlı və şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliklərin hesabat yığıncaqlarında iştirak və çıxış etmişdir.

Elçin İSMAYIL

Hər bir vətəndaş səfərbər olmalıdır

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) yaradılmasının 5-ci ildönümü münasibətilə Qazax rayonunda tədbir keçirilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə müharibə veteranları, SHXÇDX-nin Qazax rayon şöbəsinin kollektivi, istefada olan zabitlər iştirak etmişdir.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək ümummilli liderin əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Tədbirdə SHXÇDX-dən və ordu quruculuğundan bəhs edən filmə baxılmışdır.

Dövlət Himni səsləndikdən sonra şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov məruzə ilə çıxış edərək bildirmişdir ki, ulu öndər Heydər Əliyev çoxşaxəli fəaliyyəti ilə xalqımıza Vətən sevgisi, Vətən birliyi, Vətən bütövlüyü aşılamışdır. Ümummilli lider Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda iqtisadi inkişafın sürətləndirilməsi ölkəmizin təhlükəsizlik və müdafiə gücünün artmasına, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, hərbi qulluqçuların sosial vəziyyətinin daha da yaxşılaşmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin müntəzəm olaraq cəbhə bölgələrinə səfər edərək əsgər və zabitlərlə görüşlər keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara Vətənin mükafatlarını təqdim etməsi silahlı qüvvələrimizin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratmış və onları torpaqlarımızın işğaldan azad olunmasında yeni-yeni qələbələrə ruhlandırmışdır.

Ali Baş Komandanın müəyyən etdiyi dövlət siyasətinin tələb olunan səviyyədə icrasını təmin etmək məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ötən 5 il ərzində əsaslı tədbirlər görülüb. 2016-cı ildə rayonumuzda gənclərin ordu sıralarına çağırışı və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Prezidentin imzaladığı Sərəncamlara müvafiq olaraq Azərbaycan Respublikasında vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışı ilə əlaqədar SHXÇDX-nin Qazax rayon şöbəsi tərəfindən çağırışçıların təyin olunduqları hərbi hissələrə göndərilməsi tam mütəşəkkil və vaxtında təmin edilmişdir. Səfərbərlik hazırlığının yüksəldilməsi məqsədilə Xidmətin Qazax rayon şöbəsi tərəfindən Silahlı Qüvvələrə təyin edilmiş hərbi-nəqliyyat vasitələri toplanaraq onlara sıra baxışı təşkil olunmuş, texniki vəziyyətlərinin yoxlanılması daim nəzarətdə saxlanılmışdır. Görülən işlərin nəticəsi olaraq SHXÇDX-nin Qazax rayon şöbəsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təlimlərində hərbi birləşmə və hissələrin ehtiyatdan hərbi vəzifəlilər və hərbi-nəqliyyat vasitələrilə komplektləşdirilməsi ilə bağlı qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sonda 5 illik münasibətilə xidmətin əməkdaşlarını bir daha təbrik edərək əmin olduğunu bildirmişdir ki, SHXÇDX-nin şəxsi heyəti dövlətin, xalqın və Ali Baş Komandanın etimadını doğruldacaq, üzərlərinə düşən məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirmək üçün böyük səy və fədakarlıqla çalışacaqlar.

SHXÇDX-nin Qazax rayon şöbəsinin rəisi, polkovnik-leytenant Vüqar Mirzəyev çıxış edərək şöbənin fəaliyyəti barədə danışmışdır.

Qazax RİHB Aparatının məsləhətçisi Müşfiq Pirverdiyev, “Ehtiyatda olan Zabitlər” Konfederasiyasının Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, Aşağı Salahlı kənd tam orta məktəbin hərbi müəllimi İsabala Mustafayev və başqaları çıxış edərək xidmətin yaranmasının 5-ci ildönümü münasibətilə öz təbriklərini bildirmişlər.

Tədbirdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova xidmətin 5 illiyinə həsr olunmuş kitab təqdim edilmişdir. Aprel döyüşlərinin bir qrup iştirakçısına şöbə tərəfindən qiymətli hədiyyələr verilmişdir. Eyni zamanda SHXÇDX-nin rəhbərliyi tərəfindən şöbənin bir qrup əməkdaşına xidmətdə fərqləndiklərinə görə Fəxri Fərman və pul mükafatları təqdim olunmuşdur.

Nüşabə HÜSEYNOVA

Qazaxda Təhlükəsiz Oyun Meydançasının açılışı olmuşdur

Litvanın Azərbaycandakı səlahiyyətli səfiri Valdas Lastauskas Qazax rayonunda olmuşdur. Səfir ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini yad etmişdir.

Sonra Qazax rayon Daş Salahlı kənd 2 saylı tam orta məktəbində Təhlükəsiz Oyun Meydançasının açılışı olmuşdur. Mərasimdə Valdas Lastauskas çıxış edərək bildirmişdir ki, açılışını etdiyimiz Təhlükəsiz Oyun Meydançası Qazax rayonunda sayca onbirincidir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova çıxış edərək Litva səfirinə Qazax rayonunda apardığı bu məqsədyönlü işlərinə görə minnətdarlığını bildirmişdir.

Onu da qeyd edək ki, Təhlükəsiz Oyun Meydançası Litva dövlətinin Azərbaycandakı səfirliyinin əməkdaşlığı ilə Qızıl Aypara Cəmiyyəti tərəfindən inşa edilmişdir.

Xuraman ƏZİMOVA

Qazax rayon prokurorluğu əməkdaşları tərəfindən 2017-ci ilin 1-ci yarısında vətəndaşların yerlərdə qəbuluna dair QRAFİK

S/№	Qəbul aparılan şəhər və kəndlərin adı	Qəbul edən şəxs	Qəbul aparılan gün, ay və saat
1	Məcburi köçkünlərin yaşadığı yeni qəsəbə	Prokuror Əlirza Babayev	25 yanvar 10:00
2	N.Nərimanov qəsəbəsi	Prokuror köməkçisi Nəriman Əsədov	26 yanvar 10:00
3	Qarapapaq kəndi	Prokuror Əlirza Babayev	08 fevral 10:00
4	Ağköynək kəndi	Prokuror köməkçisi Nəriman Əsədov	22 fevral 10:00
5	Barxudarlı və Sofulu kəndləri	Prokuror Əlirza Babayev	09 mart 10:00
6	Bağanıs Ayrım və Xeyrımlı kəndləri	Prokuror köməkçisi Nəriman Əsədov	15 mart 10:00
7	Xanlıqlar kəndi	Prokuror Əlirza Babayev	05 aprel 10:00
8	Çaylı və Kommuna kəndləri	Prokuror köməkçisi Nəriman Əsədov	19 aprel 10:00
9	Ürkməzli və Dəmirçilər kəndləri	Prokuror Əlirza Babayev	26 aprel 10:00
10	Abbasbəyli kəndi	Prokuror köməkçisi Nəriman Əsədov	03 may 10:00
11	Alpout kəndi	Prokuror Əlirza Babayev	17 may 10:00
12	Məzəm kəndi	Prokuror köməkçisi Nəriman Əsədov	24 may 10:00
13	Fərəhli və Qızıl Hacılı kəndləri	Prokuror Əlirza Babayev	09 iyun 10:00
14	Cəfərli və Bala Cəfərli kəndləri	Prokuror köməkçisi Nəriman Əsədov	14 iyun 10:00
15	Quşçu Ayrım	Prokuror Əlirza Babayev	28 iyun 10:00

İTMİŞDİR

Ağköynək kənd sakini mərhum Musayev Nüsrəddin Mirzalı oğlunun adına verilmiş JN-57A nömrəli torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Sınaq imtahanları keçirilmişdir

Qazax rayon ümumi təhsil məktəblərinin IX sinif şagirdlərinin yeni qaydalar əsasında buraxılış imtahanlarına hazırlıq məqsədilə fevralın 5-də sınaq imtahanları keçirilmişdir. İmtahanlar Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun təşəbbüsü ilə təşkil olunmuşdur. İstifadə olunan imtahan materialları “Kaspi Təhsil Mərkəzi” tərəfindən tərtib edilmişdir.

İmtahanlar rayon üzrə 3 mərkəzdə təşkil olunmuşdur. Şəhər 1 saylı tam orta məktəbindəki mərkəzdə 21 məktəbdən 603 şagird, Daş Salahlı kənd 2 saylı tam orta məktəbindəki mərkəzdə 10 məktəbdən 186 şagird, I Şıxlı kənd tam orta məktəbindəki mərkəzdə 9 məktəbdən 203 şagird imtahanlara cəlb edilmişdir. Rayon üzrə cəmi 35 nəfər şagird üzürlü və üzürsüz səbəblərdən imtahanlarda iştirak etməmişdir.

İmtahanı böyük razılıqla qarşılayan şagird, müəllim və valideynlər Ölkə Prezidenti İlham Əliyevə və rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirmişlər.

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

2017/2018-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbulu elanı

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər DİN-in xüsusi-həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər. (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma - 6 dəfə; qaçış 100 metr məsafəyə - 15 saniyə və 1000 metr məsafəyə - 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması - 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; qaçış 100 metr məsafəyə - 19 saniyə və 1000 metr məsafəyə - 5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasında dərslər 15 sentyabrda başlayır, tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiyaya qəbul olunmuş kursantlar 14 avqust - 13 sentyabr tarixlərində Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin olunur, təhsil və kurs müddətində həmin akademiyanın ərazisində yerləşən yataqxanada qalırlar.

Ətraflı məlumat www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

Məzunlara “hüquqşünaslıq” ixtisası, “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2017-ci ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də “Azərbaycan Respublikası Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər DİN-in Polis Akademiyasına qəbul edilmirlər.

DİN-in Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə və ya şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2017-ci ilin fevral ayının 1-dən mart ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 1000-dan 1700-dək aparılacaqdır.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:
(012) 454-12-78;
(012) 590-97-76
Qazax RPŞ-nə müraciət edə bilərlər.
(02229) 5-14-97
Mob: (050) 347-61-81

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AIIB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 499

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.